texnoloji əsaslarla şəhərsalmanın həyata keçirilməsi istiqamətində bir çox işlərə start verilib. Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin gerçəkləşməsi, digər ərazilərdə də bu nümunədən istifadə edilməsi imkanlarını yarada bilir.

Ağalı kəndində yaşayan ailələrin sayı 200-dən çoxdur. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşası nəzərdə tutulur. Yaşayış məntəqəsində sakinlərin rahatlığı üçün hər cür şərait nəzərə alınıb. Prezident İlham Əliyev kənd sakinləri ilə görüşündə dediyi kimi, "bir o qalıb ki, 30 ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, burada rahat yaşasınlar, müzəffər xalq kimi əbədi yaşasınlar. Belə də olacaq. Bundan sonra həm Zəngilan rayonunda, həm digər rayonlarda, indi Baş planları təsdiq edilmiş rayonlarda inşaat işləri daha sürətlə gedəcək".[3]

***Ədəbiyyat:***


1. Azərbaycan-2030: sosial-iqtisadi inişafa dair Milli Prioritetlər, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Fərmanı.
2. Ağalı kəndinə əhalinin köçürülməsinin ikinci mərhələsi başa çatıb. URL: https://sia.az/az/news/politics/980878.html
3. İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər. URL: https://president.az/az/articles/view/51179
4. Wikipedia. URL: https://www.wikipedia.org/


## ƏTRAF MÜHIT AMILLƏRINƏ İNSAN INKIŞAFININ TƏSIRININ QIYMƏTLƏNDIRILMƏSI


*Nəsibova Günay Namiq qızı*
*Rəhbər: Nəsibova Arifə Carı qızı*
*Mingəçevir Dövlət Universiteti*


Müasir dövrdə mövcud olan qlobal və lokal ətraf mühit problemləri insan inkişafına əsaslanan tərəqqini əngəlləyən əsas amillərdən birinə çevrilmişdir. Ətraf mühit dedikdə, bir çox hallarda, təbii mühit nəzərdə tutulur. Ətraf mühitin vəziyyəti dedikdə isə yenə də təbii mühitin vəziyyəti, onun keyfiyyəti, təbii mühiti təşkil edən hava, su, torpağın xüsusiyyətləri və çirklənmə dərəcələri, biomüxtəlifliyin mühafizəsinin durumu və buna oxşar məsələlər düşünülür. Belə bir yanaşma şəraitində təbii ətraf mühitin vəziyyəti, yəni ekoloji şərait davamlı insan potensialına əsaslanan inkişafa təsir edən amil kimi qəbul olunur. Bu, bir faktdır ki, insanın cəmiyyətdə vəziyyəti, onun inkişaf imkanları təbii mühitdən çox asılıdır. Bir çox hallarda isə ətraf mühitin vəziyyəti anlayışı ekoloji vəziyyət kimi qəbul olunmaqdadır.

Lakin nəzərə alınmalıdır ki, insanı əhatə edən və cəmiyyətin uğurlu və uzunmüddətli inkişafına təsir edən ətraf mühit amilləri təkcə təbii şəraitlə məhdudlaşmır. İnsan inkişafının tam şəkildə və ya maksimum dərəcədə üzə çıxmasında təkcə təbii mühit əhəmiyyətli rol oynamır. Çünki insanı əhatə edən vahid bir mühit mövcuddur ki, o da təbii, iqtisadi, sosial və siyasi mühitlərdən təşkil

olunmasıdır. Məhz siyasi mühit ətraf mühitin bütün elementlərinin, o cümlədən təbii mühitin, vahid bir sistem kimi optimal şəkildə idarə olunmasına əhəmiyyətli təsir göstərən bir amil olduğunu göstərir.

Təbiət həm tarixən, həm də müasir dövrdə insanın yaşamını və inkişafını təmin edən ən əsas amillərdən biridir. Və buna uyğun olaraq insan təbii ətraf mühitdən hər zaman asılı olmuşdur. Təbii ətraf mühit insanın bir bioloji varlıq kimi formalaşması, onun təkamülü üçün şərait yaradan vacib amildir. Odur ki, onun müxtəlifliyi insan cəmiyyətinin inkişafında mühüm rol oynamış və bu gündə oynamaqdadır. Ətraf mühit insanın əsas bioloji, sosial və iqtisadi tələblərini ödəməsi üçün şərait yaradan həlledici mənbədir.

Hələ ən qədim dövrlərdə belə təbii mühit insana qeyri-əlverişli amillərdən qorunmaq üçün sığınacaq vermiş, onu qurmaq və təkmilləşdirmək üçün şərait yaratmış, qida və dərman vasitələri, geyim və alətlər, istehsal və istehlak üçün xammalla təmin etmişdir. İnsan təbii ətraf mühiti, onun canlı və cansız komponentlərini öyrənməklə yeni biliklərə yiyələnir və bu biliklərdən cəmiyyətin və fərdin inkişafı üçün istifadə etməyə nail olur.

Aydındır ki, insanı əhatə edən təbiət onun yaşaması və inkişafı üçün tələb olunan hər cür şəraitin yaradılmasında mühüm rol oynayır. Bundan əlavə biz nəzərə alsaq ki, təbii mühit şəraiti hər yerdə eyni dərəcədə zəngin deyil və inkişaf üçün fərqli potensiala malikdir. O zaman təbiətin vahid bir sistem olduğunu və onun optimal fəaliyyətnin bir sistemin bütün elementlərinin qorunması üçün müvafiq şərait yaradılmasını tələb etdiyini görərik.

Bəşəriyyət insan cəmiyyətinin təkamülünün ilk illərindən başlayaraq və sivilizasiyanın hər mərhələsində ətraf təbii mühitin optimal idarə edilməsi istiqamətində biliklərə malik olmağa çalışıb. Bu biliklərin toplanması, cəmlənməsi, gələcək nəsillərə ötürülməsi və istifadəsi istiqamətində hər zaman fəaliyyəti həyata keçirib. Bu problem hazırda da aktualdır və gələcəkdə də aktual olacaq. Ekoloji baxımdan bu prinsip heç zaman dəyişməyib və qədim vaxtlardan başlayaraq hazırkı dövrə qədər davam etdiril- məkdədir. Bu istiqamətdə baş vermiş dəyişikliklər, elmi və texnoloji tərəqqi, bu sahədə qazanılmış nailiyyətlərin təbiətin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə yönəldilməsi ilə əlaqəlidir. Başqa sözlə, ətraf mühit insan potensialına əsaslanan inkişaf naminə zamanla dəyişən, əsasən, bu məqsədlərə xidmət edən texnologiyaların təkmilləşməsində maraqlıdır.

Bu gün müasir dövrdə insanın təbiətdən asılılığı olduqca böyükdür. Son illərdə baş vermiş qlobal iqlim dəyişmələri və bununla əlaqədar təbii fəlakətlər, insanların üzləşdiyi texnoloji qəzalar və humanitar böhranlar, onlardan doğan itki və məhrumiyyətlər insanın təbiətdən nə dərəcədə asılı olduğunu bir daha sübut edir. Bu gün Qardaş Türkiyə ölkəsində baş vermiş zəlzələ bunun bir nümunəsi ola bilər. Hətta texnoloji səviyyəsi və iqtisadi baxımdan çox yüksək inkişaf etmiş ölkələr belə təbii fəlakətin və onun fəsadlarının qarşısında acız qalmışdır. Bu səbəbdən insan inkişafının ətraf mühitin idarə edilməsi sahəsində müasir bilik və bacarıqlarının nəzərə alınması çox vacib və əhəmiyyətlidir.

***Ədəbiyyat:***

1. Ələkbərov U.K.İnsan inkişafını əsasları. Ali məktəblər üçün dərslik, Bakı.,"Aspoliqraf", 2016.
2. Ələkbərov U.K. Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi ölkənin innovativ inkişafının göstəricisi kimi. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Bakı, 2018.
3. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı, 2018.
4. Ələkbərov U., İmanov Q. "Ekoloji sivilizasiya indeksi: konsepsiya və ilk tətbiq". Bakı, "Təhsil" 2011.
5. Ələkbərov U.K. "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları". Ali məktəblər üçün dərslik. Bakı, 2013.
6. Hacızadə E. "Davamlı inkişaf konsepsiyasının sosial-iqtisadi aspektləri", Elmi əsərlərin siyahısı, 2012.
7. Hüseynov S. Davamlı inkişaf və ekoloji problemlər. Bakı, 2016.
8. Xəlilov T., Zeynalova M. Qlobal ekoloji problemləri. Dərs vəsaiti. Bakı, 2014.